BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3* *Sosial-siyasi elmlər seriyası* *2015*

**FƏLSƏFƏ**

**UOT 321. 01; 340. 11:1**

# HÜQUQUN FƏLSƏFƏSİNDƏ "ƏDALƏT" MƏFHUMUNUN FƏLSƏFİ VƏ HÜQUQİ TƏHLİLİ

**Ə.N.PAŞAYEVA**
***AMEA-nın Fəlsəfə və Hüquq İnstitutu***
***pashayeva.ph@mail.ru***

*Hüququn fəlsəfəsində təhlil olunan mövzulardan biri də "ədalət" mövzusudur və bu mövzu hüquq elminin əsasını təşkil edir. Ədalət əxlaqın mühüm xüsusiyyətlrindən biri olaraq, həm də onun üstün sifətlərini əks etdirir. Filosofların fikrincə, ədalət məfhumu bir neçə kateqoriyaya bölünür və bu kateqoriyaların işlənməsi hüquq və onun daxilində olan qanunlar əsasındadır. Ədalətin mənası hüquqi prinsiplərə bağlıdır və qanunları əks etdirməyən ədalət söz kimi mövcud olacaqdır.*

*Məqalədə, filosof və hüquqşünasların hüquq nəzəriyyəsinə istinad etməklə, ədalət məfhumunun fəlsəfi və hüquqi mənaları araşdırılmaqla onun ictimai tərəfləri təhlil olunmuşdur.*

**Açar sözlər:** hüququn fəlsəfəsi, əxlaq, hüquq, qanun, ədalət, ictimaiyyət, dövlət

## *Giriş*

İnsanın nəinki cismi, əsas nəfsi ədalətə ehtiyacı vardır. Çünki bu fəzilət ələ gəldikdən sonra daxili qüvvələrdən hər biri yerini tutur və bu qüvvələr arasında xüsusi nizam-intizam hökm sürür və başçılıq edir. İnsanın bütün qüvvələri, o cümlədən qəzəb və şəhvət qüvvələri ağlın nəzarəti altında olmalı və bunların hər biri özünün öhdəsində olan vəzifəni yerinə yetirməlidir. Ədalət elə bir məfhumdur ki, bəşəriyyət özünün başlanğıc mərhələsində onu tanımağa və tanıtdırmağa can atmışdır.

Bizi əhatə edən ətraf aləm və ya təbiət aləmi, yaranış barədə olan düşüncələr və tarixi hadisələr buna əsas verir ki, aləm səbəbsiz olaraq yaranmamışdır. Burada əsas məqsəd hədəfdir və bu hədəfdə müəyyən qayda hökm sürür. İnsan bu hədəfə çatmaq üçün müəyyən rütbəyə sahibdir və çalışır ki, özünü haqqı olduğu həmin dərəcəyə uyğunlaşdırsın. Mövcud aləmdə hər şey düzgün istiqamətdə olarsa doğru və ədalətli hesab olunur. Bu düzgün istiqaməti hüquq ələ gətirir və əgər hüquq olmasa ədalət termin olaraq mövcud olacaqdır. Ədalət hüquqdan kənarda deyil və ola da bilməz. Hüququn əsas məqsədi varlıqları və müxtəlif hadisələri müşahidə etmək və ədalətin tələb etdiyi qərarı verməkdir. Hüquq və ədalət həm təcrübədə və həm də nəzəriyyədə bir-birini

tənzimləyir və bunların ayrı-ayrılıqda mövcudluğu qeyri-mümkündür.

Hüququn əsasın ədalət təşkil edir və ədalət anlayışı, ilk növbədə, hüququn prinsiplərini əks etdirir; ədalət olmadan hüququn mövcudluğu şübhə doğurur. Ona görə ki, hüququn hədəfi ədaləti bərpa etməkdir və bunlar (hüquq və ədalət) bir-birini tamamlayır.

Təbiətdə baş verən hər nə varsa və nə qədər ki, təhlil olunursa, son olaraq hüquqa və ədalətə üz tutur; hər hansı bir düzgün qərar hüquq daxilində (ədalətlə) öz həllini tapır. Əgər hər hansı bir fikir bu iki prinsipə (hüquq və ədalət) istinad etməsə insan hədəfə çata bilməz və bizi əhatə edən aləmdə sabit struktur mövcud ola bilməz. Elə buna görə də, ədalət və hüquq anlayışlarını nəinki məfhum olaraq bilmək, həm də onun ictimaiyyətdə dərəcə və tətbiqinin ("olan" və "gərək olsun") təhlilə ehtiyacı vardır. Bu mənada, ilk oaraq "ədalət" sözünün lüğəti və mövzuda işlənmə mənalarını bilmək zəruridir.

***Ədalət kəlməsinin lüğəti və mövzuda işlənmə mənası***

Qeyd etmək lazımdır ki, "ədalət" ərəb kəlməsi olan "ədl" sözündən götürülmüş məsdərdir və mənası "bərabərlik", "tarazlıq" deməkdir. Bu kəlmə, eyni zamanda əşyanın müqayisə olunmasında da işlədilir (1, 325). Amma bəzi dilçi alimlər "ədl" sözünü "istiqamət" adlandırmışlar (2, c.11, 414; c. 3, 494). Digər dilçilikdə isə "ədalət" kəlməsi müxtəlif mənalarda, o cümlədən, hər hansı bir işi düzgün yerinə yetirmək, düz yola gətirmək, istiqamətləndirmək, düzgün hesab etmək və digər mənalarda işlədilir (3, 1257-1258).

Ədalət sözünün mövzuda işlənmə mənası isə daha genişdir. Filosoflar ədalət sözünün mövzuda işlənmə mənasını belə izah edirlər. İbn Meskuyenin[1] fikrincə, "ədalət" əsil ideya və qərara alınmış bir üsuldur ki, haqqın mənasını müəyyənləşdirir, ona ehtiram və əməl olunmasını tələb edir. Əgər ədalət hər hansı bir şeylə bağlılığı olsa və bu haqqa uyğun olarsa, onda ədl "bərabərlik" və "düzgünlük" mənasındadır. Amma əgər şəxslə bağlı olarsa, onda "ədl" əsil fəzilətlərdən biridir. Əsl fəzilətlər "hikmət", "şücaət", "iffət" və "ədalət"dən ibarətdir. "Ədalət" təkcə fəzilət deyil, bəlkə fəzilətin əsasıdır (4, 53, 34).

Bunun nəticəsi olaraq demək olar ki, ədalət iki hissəyə ayrılır: mübadləli və bölgülü ədalət. Mübadiləli ədalət, insanların bir-birlərilə əlaqəsini və aralarında olan ünsiyyəti tənzimləyir və bu əlaqələri müəyyən və düzgün istiqamətə yönəldir. Amma bölgülü ədalət, insanların dövlətlə əlaqəsini, insan və dövlət arasında olan münasibətləri sistemləşdirir və bunların ikisi də vahid sistemə daxildir.

Diqqət etsək görərik ki, burada çox mühüm bir fərq mövcuddur və o bundan ibarətdir ki, mübadiləli ədalət riyaziyyata (ədədə), amma bölgülü ədalət isə həndəsəyə aiddir, yəni burada həm fərd (tək) və həm cəm hökm sürür. Ədəd fərdə (şəxsə) və cəm isə həndəsəyə (topluya) aiddir. Ədalət, insan və

---

[1] Əbu Əli Əhməd bin Məhəmməd bin Yaqub Məskəviye Razi, (1326-1421 h.q.) 11-ci əsrdə yaşamış məşhur filosof, ilahiyatçı, riyaziyyatçı, təbib və təbiətşünas.

dövlət arasında əlaqə yaradır və hüququ rəhbər tutaraq iki tərəf arasında (şəxs və dövlət) münasibətlərə riayət olmasını tələb edir.

***Qədim mütəfəkkirlərin əsərlərində ədalət məfhumu***

Qədim yunan dövrünü təhlil etdikdə görürük ki, o dövrdə ədalət, şəxsə aid olan sifət hesab olunurdu, yəni ədalət digərlərinin haqqına riayət etməyin əsası kimi qəbul olunurdu. Əgər insan digərlərinə ehtiramsızlıq edirdisə ədalət hissi onu vicdan əzabı çəkməyə məcbur edirdi və insan xəcalət hissi keçirirdi. Platon və Aristotel dövründə yaşayan Menkius[2] ədaləti iki hissəyə ayıraraq yazırdı ki, ədalət həm icraçıdır və həm də icra olunandır. Əgər icraedici ədalət şəxs olsa onun ölkəsində hər şey ədalətə uyğun olacaq (5, 62-63). Menkiusun qeyd etdiyi ədalət, yəni yüksək əxlaqa sahib olmaq, qanunlara tabe olmaq, düzgün və tələb olunanlara riayət etmək deməkdir.

Əgər bu mövzu barəsində Platon nəzəriyyəsinə müraciət etsək görərik ki, onun fəlsəfəsində ədalət mövzusu mühüm yer tutur. Platon, ədalət kəlməsi üçün yunan sözü olan *"Dikaiosune"* (δικαιοσύνη) terminini işlətmişdir[3]. O, ədalətin mənasını belə izah edir: "hər kəs ona aid olan və öhdəsində olan vəzifəsini yerinə yetirməlidir" Onun fikrincə, ədalət məfhumu təkcə ictimai məsələlərə aid deyil, bu həm də əxlaqi və siyasi məsələlərə də bağlıdır (6, 28, 236).

Əgər diqqət etsək görərik ki, burada Platon müstəqil olaraq təbii hüququn[4] mövcudluğunu və qanunvericilikdə olan ideal prinsipləri irəli sürmüşdür. Amma bu o demək deyildir ki, Platon dövlətin mövcud qərarlarını hüquqi hesab etmir, bəlkə onun nəzərində hüquq və ədalət təbii məfhum olduğu üçün bunların bir-birinə bağlılığı mövcuddur, yəni dövlət qanunlarını bu iki məfhumsuz təsəvvür etmək qeyri-mümkündür; çünki qanunlar və qərarlar məhz hüquq daxilində yaranır və dövlət tərəfindən tənzimlənir.

Ədalət məfhumu əxlaqa aid olaraq insanın bütün vəzifələrini əhatə edir. Ədalət, şəxsi rəftarın ümumi hədəflərini digərlərində təsir edənə qədər qoruyur. Platon, ədaləti bəzən şəxsiyyətin və bəzən isə ictimaiyyətin vəziyyəti ilə əlaqələndirir. Onun nəzərində, şəxsiyyətə aid olan ədalət, şəxsin düzgün əmələ sahib olmasıdır. Amma ictimai ədalət[5] isə cəmiyyətdə tələb olunan nizam-

---

[2] Mencius ya Meng Ko, (289-372 m. ə.) Çin siyasi filosofu, miladdan əvvəl 4-cü əsrdə yaşayıb.

[3] Qeyd olunmalıdır ki, yunan mətnində işlədilən *"Dikaiosune"* (ədalət) terminin mənası genişdir.

[4] Hüququn fəlsəfəsində əsas mövzulardan biri hesab olunan *təbii hüquq (Natural Law)* və *tədqiqi hüquq (Positive of law)* mövzusudur. Təbii hüquq ardıcılları iddia edirlər ki, hüquq ağıla əsaslanaraq təbii və fitri olaraq yaranmışdır, amma tədqiqi hüquq ardıcılları bunları qəbul etməyərək hüquq və qanunların məhz qanunvericilik tərəfindən yarandığını bildirirlər.

[5] Qeyd olunması zəruridir ki, "ictimaiyyət" sözü ərəb dilindədir və yunan dilində isə "koinoteta" (κοινότητα) adlanır. İctimai ədalət (social justice) termini ilk dəfə sosioloqlar tərəfindən irəli sürülmüşdür. Onların fikrincə, insanlar üzərində hakim olan bütün qaydaları ümumi vicdanda axtarmaq lazımdır. O, şəxs ki, ədalət barəsində danışır, gərək bundan sonra ictimai ədaləti hüquqi qaydaların bazası hesab etsin.

intizamın və bütün məsələlərdə hormoniyanın[6] qorunmasıdır (7, 36), yəni şəxsi ədalətdə pisixoloji tarazlıq (psychic harmony) və ictimai məsələlərdə isə ictimai tarazlıq (social harmony) nəzərdə tutulur.

İctimai ədalət o vaxt bərqərar olur ki, hər hansı bir şəxs bacardığı işi yerinə yetirsin və digərlərinin işinə müdaxilə etməkdən çəkinsin. Əgər belə olmazsa, onda ictimaiyyətdə nizam-intizam pozular və ölkədə nizamsızlıq hökm sürər. Platon, ədalət məhumunu fəzilətlə birlikdə axtarır; bundan başqa, ictimai ədalətin mövcudluğunu ağıllı və elmli hakimdə görür, bu hakimə və onun hakimiyyətinə olunan hər hansı bir təcavüzü hədsiz dərəcədə haqsızlıq hesab edir (8, 1009, 1690-2).

Platonun fikrincə, ədalət elə bir fəzilətdir ki, hər kəs təbii olaraq ona aid olan işi, digərlərinin işinə qarışmamaq və mane olmamaq şərti ilə yerinə yetirsin. Hər hansı bir şəxs, müəyyən ölçü daxilində ona aid olan işi yerinə yetirsin. Platon ədalətin mahiyyətini insan əməllərilə əlaqələndirir və bildirir ki, ədalətli insanın etdiyi hər hansı bir iş ədalət daxilindədir və bundan kənarda ola bilməz. Hissləri ağlına tabe olan şəxsə məlumdur ki, hansı iş ədalətə uyğun və hansı iş ədalətə uyğun deyildir. Ədalətli olmaq üçün hissə və təcrübəyə əsaslanmaq olmaz və ədalətin meyarını hiss deyil, ağıl müəyyənləşdirir və bundan sonra hissə həvalə olunur; məsələn, hər hansı bir iş yerinə yetirilməkdən öncə düşünülür və onun mahiyyəti və mənası aydınlaşdırılır və bundan sonra onun yerinə yetirilməsinə hökm olunur. Burada hiss və praktika ikinci mərhələdə dayanır və buna görə də hüquqa aid olan əxlaqi və digər məsələləri təkcə praktikaya aid etmək hüququn dəyərini məhdudlaşdırmaq deməkdir. Hüquq elmi[7], əhatəli, saf (pure) və mücərrəd bir elm olaraq bütün bu məhdudiyyətləri sübutlar (proofs) əsasında təhlil edir və digər elmləri də (fəlsəfədən başqa) nəzarətdə saxlayır. Hüququn mücərrəd olmağının əsas sübutu odur ki, digər elmlər hüquqla müqayisədə acizdir, çünki bu elmlərin hər hansı bir meyarlarda hüquqa ehtiyacı vardır. Digər bir məsələ ondan ibarətdir ki, ədalət fəzilət olmaqdan əlavə, həm də ideyadır və elə bir ideya ki, təkcə fəlsəfi-hüquqi doktrinalar əsasında bunu əldə etmək mümkündür. İctimai elmlər, ədalətin praktiki tərəflərini göstərə bilər, amma mahiyyətini və onun yaranma (zatını) səbəblərini təhlil edə bilməz, çünki bu məsələlərin təhlili varlıqla bağlı olduğu üçün məhz fəlsəfədə axtarılmalıdır.

Amma Aristotelin ədalət barədə olan fikirləri o qədər əhatəlidir ki, hətta ondan sonra gələn filosoflara belə təsir etmişdir. O, yazdığı *"Nikomaxusun əxlaqı"* (Nicomachean Ethics) adlı əsərində ədaləti iki hissəyə ayırır: təbii və qanuni ədalət. Təbii ədalət, əşyanın təbiətindən bəhrələnir, şəxsin əqidəsilə və ictimaiyyətdə hakim qanunlarla əlaqəsi yoxdur, yəni təbii ədalət ilahi və ideal

---

[6] "Harmonious" latın dilinə aid olan "harmonie" sözündən götürülmüşdür. Lüğəti mənası "uyğunluq", "ahəngdarlıq" və "hormoniya" deməkdir.

[7] Nəzərə almaq lazımdır ki, burada hüququn fəlsəfi təhlilindən bəhs olunur, nəinki ictimai hüquq elmindən.

bir xüsusiyyətə malikdir. Amma qanuni ədalət isə qanunun əmrlərinə tabedir; müəyyən bir meyarı yoxdur və bu meyarı asanlıqla müəyyənləşdirmək mümkün deyil. Qanuni ədalət, qanunla bağlı olaraq ancaq qanun əsasında nəticə əldə edir (9, 20-22 / 338). Amma burada hakimə verilən səlahiyyəti də nəzərə almaq lazımdır. Hakimə verilən səlahiyyət ədalətin üstünlüyünü və qanunlar toplusunun ədalətə bağlı olduğunu göstərir. Hakim, qanunların tətbiqində, onların hətta tək-tək insanlar arasında işlənməsində, ona həvalə olunan səlahiyyətdən istifadə edərək və ədalətli qanunlardan ruhlanaraq müəyyən hədd və ədalət çərçivəsində tələb olunan ədalətli qərarı qoruyur və ona riayət edir; yəni hakim ixtiyarında olan qanunu ədalətlə birlikdə saxlayır və qanunların ədalətsiz, daimi və davamlı olması qeyri-mümkündür. Əgər hakim istəsə, hər hansı bir məsələni tələb olunan həddə yerinə yetirsin, ilk növbədə ədaləti və sonra isə qanunu əsas götürməlidir. Əks halda qanun öz qüvvəsini itirir və bunun da nəticəsində nəinki hüquqi sistemdə, ictimaiyyətdə və hətta insan mənəviyyatında nizam-intizam pozulur. Çünki ədalətin bərpası təkcə insanın cismi ilə əlaqədar deyil, bu həm də onun ruhu ilə sıx bağlıdır. İcra olunan hər hansı bir ədalətli qərar insan ruhunun rahatlığıdır. Digər mühüm məsələ odur ki, hakimin ədaləti qanundan öndə rəhbər tutması təkcə ictimaiyyətdə nizam-intizamın hökm sürməsi deyil, bu şərəfli məsuliyyət səbəb olur ki, insan azad düşünsün və hər bir insan özünə və hərəkətlərinə həm əqli və həm də ruhi baxımdan hakim olsun. Hüquqi quruluşların əsas hədəfi ondan ibarətdir ki, bütün insanlar həm özlərinin və həm də digərləri qarşısında olan vicdan hissinə müraciət etməklə, həm daxili və həm də xarici (ictimai) davranışlarına hakim olsunlar. Çünki, insan həm özü və həm də toplu qarşısında məsuliyyət daşıyır.

Burada daxili və xarici davranış dedikdə mühüm bir məsələyə diqqət etmək lazımdır və o, bundan ibarətdir ki, daxili davranış insanın özünə verdiyi hesabatdır, amma xarici davranış isə özünə və digərləri qarşısında hesabatdan əlavə, həm də çox tələb olunan və gərgin bir məsuliyyətdir. Hakimin üstünlüyü ondadır ki, ədalət daxilində, özünün ideal göstəricilərinə əsaslanaraq daxili və xarici nizamsızlığı və gərginliyi aradan qaldırsın və qanunlardan faydalanraq əsl şəxsi və ictimai insan simvolunu yaratsın.

Bundan başqa, Aristotel ədaləti həm şəxsi və həm də ictimai adlandırır. Şəxsi ədalət, ruha bağlı olan bir sifətdir. Bu sifət, insana xüsusi bir qüvvə bəxş edir ki, insan işlərini düzgün yerinə yetirsin, həm özü üçün və həm də yaşadığı mühit üçün ləyaqətli insan olsun. Aristotel, həm insanla və həm də əxlaqla bağlı olan məsələlərdə ədalətə riayət olunmasını başlıca amil hesab edir. Onun fikrincə, fəzilətin (ədalət) özündə də iki mühüm məsələ mövcuddur və bunlardan biri ifrat (excess) və digəri isə təfritdir (deficiency). Bunların arasında müəyyən ölçüyə riayət olunmalıdır və bu ölçü, həmin fəzilətin sifətlərindən biri və ən əsaslısı olan ədalətdir. Düzgün olmayan əməl, ədalətin meyarı ola bilməz. Ədalət, ifrat və təfrit arasında göstərici olmaqdan əlavə, həm də nizamlayıcı bir əməldir (10, 119, 125). Amma, ədaləti göstərici və nizamlayıcı bir əməl adlandırmaq çox azdır, bu həm də ictimai əməlləri qaydaya salan və onu

müəyyən struktura tabe edən başlıca amildir. Ümumiyyətlə, ədalət ictimai üstünlük olmaqla, həm mənəvi və həm də fiziki dəyərdir. Şəxsi ədalət, insanın bütün nəfsani istəklərini əhatə etməli və bütün işlərdə meyar olmalıdır.

Ümumiyyətlə, Aristotel nəzərində, insanın fəzilətə (ədalətə) sahib olmağı təbiətin və ya digər amilin istəyi və hökmü ilə deyil, ona görə ki, insan fitrəti zatidir, yəni bəsitdir. Amma fəzilət və ədalət isə bəsit deyil, bəlkə sonradan yaranır və insan təbiəti, bunları (fəziləti və ədalət) öz təbiətinə uyğunlaşdıra bilər və onun üçün digər sifət və dəyərləri də yarada bilər (9, 21).

Amma ictimai ədalət, ədalətin xüsusi mənasını bəyan edir və bu bütün fəzilətlərə şamil olunur. Çünki hər hansı bir şəxs, əgər insan mənəviyyatına zidd hərəkət edərsə, həm özünə və həm də ətrafdakılara pislik etmiş olur. Həqiqi səadətə nail olmaq, o deməkdir ki, şəxs fəzilətlərə sahib olsun və ağlın göstərişlərinə əməl etsin. *Tənasüblik* (proportionality) və qanun qarşısında *bərabərlik* (the equality before law) ədaləti özündə əks etdirir və bunlar ədalət bölgüsünə (distributive justice) və ədalətli cəzaya (retributive justice) şamil olunur. Ədalət bölgüsü dedikdə, burada ictimaiyyətdə insanlara verilən dərəcənin, sərvətin və digər mənafelərin bölgüsü nəzərdə tutulur. Amma ədalətin cəzası dedikdə isə bu hakim tərəfindən cinayətkara verilir. Hər iki halda ədalət, *mütənasib bərabərlik* (proportional equality) deməkdir. Ədalətli cəza hissəsində verilən cəzalar cinayətə uyğun olaraq müəyyənləşməlidir və cəzalar eyni qayda da və tam bərabər şəkildə bütün cinayətkarlara şamil olunmalıdır. Ədalət bölgüsündə hər bir şəxs layiqli bir işi yerinə yetirirsə, onda o, münasib bir hədiyyəyə sahib olur və hətta verilən hədiyyələr də eyni səviyyədə və bərabər olmalıdır (11, 179).

Ədalət mövzusunda Siseronun fikirləri də maraqlıdır. O, "ədalət" və "ağıl" arasında fərq qoyur və hər birini ayrı-ayrılıqda təhlil edir. Ağıl, bizi məcbur edir ki, istəklərimizi daha da artıraq, yəni özümüzə aid olan şəxsi istəkləri (mənfət, var-dövləti və s.) genişləndirək; insanların böyük əksəriyyətinə başçılıq edək, əyləncələrdən zövq alaq, bir sözlə həyatımızı şad və şənlik içərisində keçirək. Amma ədalət isə bizə əmr edir ki, bütün insanları düşdüyü çətinliklərdən xilas edək, bəşər övladının bütün mənafelərini diqqət mərkəzində saxlayaq, ləyaqəti olan şəxsə layiq olduğunu verək, ümümi və müqəddəs sayılan və digərlərinə mənsub olan şəxsi sərvətə yaxınlaşmayaq (12, 24).

Siseronun dediklərində bir məsələyə diqqət etmək lazımdır. Onun ümumi və müştərək mənafeyi əhatə edən dəyərli fikirləri, Aristotelin əxlaq və ictimai məsələlərlə bağlı olan digər əsərlərində göstərilmişdir, yəni bu fikirləri tam olaraq Siserona aid etmək olmaz və bütün bunlar Siserodan əvvəl məhz Aristotel tərəfindən deyilmiş, amma insafla demək lazımdır ki, Roma hüquqşünasları bu məsələləri daha əhatəli formada və tam aydınlığı ilə bəyan etmişlər.

Ədalət mövzusunda mühüm məsələlərdən biri də budur ki, ədalətə aid olan məsələləri necə öyrənək və bunları ələ gətirmək üçün hansı prinsiplərə müraciət edək? Diqqət etmək lazımdır ki, bu məsələ barəsində müəyyən bir cavab göstərilməyib və demək olar ki, hüququn fəlsəfəsində ən gərgin məsə-

lələrdən biri hesab olunur. Bəziləri iddia edirlər ki, ədalətə aid olan prinsiplər gərək ağıl, ictimai və ideal məsələlərin vasitəsilə ələ gəlsin; yəni burada, əşyanın təbiəti və təbiət aləminin ümumi nizamı və yaranış nəzərdə tutulur. Digərləri isə bu məsələdə, ağılın öndə olmasını qəbul etməmiş və bunun ələ gəlməsini təkcə iman və nurun vasitəsilə mümkün olduğunu bildirmişlər.

İnsana xas olan duyğular və qəlbin istəyi nəticəsində haqsızlıqlar baş verir. Göründüyü kimi, burada alimlər, əsasən ilahi hökmü və dini məsələləri önə çəkmişlər. Sosioloqların nəzərində ədalət ümumi vicdandan yaranır. O şəxslər ki, ictimaiyyətə aid olan vicdan məfhumunu qəbul etmirlər və bu halda bildirirlər ki, ədalətli qayda odur ki, insanların böyük hissəsi onu düzgün hesab etsin. Bunların qarşısında digər bir qrup, ədaləti ümumi rəyə tabe olan bir məfhum kimi qəbul etmirlər. Onların fikrincə, təbii qaydaları əksəriyyətin qüvvəsilə dəyişmək olmaz; yəni ədaləti əksəriyyətin rəyi ilə müəyyən etmək olmaz. Bu bir reallıqdır və bu reallıq ümumi nəzərə bağlı deyil. Amma Aristotel bu barədə yazır ki, "ədalət bir əmrdir və ədalətli insan düşünür" (13, 165, 626).

Bu barədə Paul Robiğin[8] fikri də maraqlıdır. Onun fikrincə, ədalətlə bağlı olan qaydaları tapmaq üçün ancaq hüququşünaslara müraciət etmək lazımdır. Çünki hüquqşünaslar bu qaydaları təhlil etməkdən əlavə, həm də bunu müqəddəs hesab edirlər. Ümumi adətlər, inanclar, davranışlar və dövlət qanunları ədalətin qaydalarını müəyyənləşdirə bilməz və elə buna görə də hüququn qaydaları və ədalət arasında ziddiyyətlər qarşıya çıxır(13. həmin mənbə).

Amma, Hegel və onun ardıcılları ədalətin mənasını dövlətlə əlaqələndirirlər. Onların fikrincə, ədalətin prinsipləri dövlətin tələblərinə bağlıdır, "olan" və "gərək olsun" prinsipləri arasında heç bir fərq yoxdur (14, 43-48). Hüquqi məsələlər müəyyən qaydaya tabedir, amma ədalət müəyyən qaydaya tabe deyil, ədalət hüquqi qaydaları nizamlayır və onları struktura uyğun olaraq tənzimləyir. Ədalətin məqsədi ondan ibrətdir ki, hər hansı bir şəxs ağıl və qanun əsasında haqqına sahib olsun. Şəxs, hüququn qarşısında və hüququn tələb etdiyi vəzifələri yerinə yetirməklə, həm də onun prinsiplərini müqəddəs saymalı və hüquqla bağlı olan hər hansı bir məsələni qəbul etməlidir.

***Ədalət və əxlaqın əlaqəsi***

Qeyd olundu ki, ədalət, əxlaqa aid olan məfhumdur və onun əsas xüsusiyyətlərindən biri hesab olunur. Ədalətin qaydaları fitri və sabit deyil və onu müəyyənləşdirmək üçün təkcə ağılın gücünə söykənmək olmaz, ona görə ki, burada dini etiqadlar və hissi duyğular təsirə malikdirlər. Əlbəttə, hər insan özündə ictimai hadisələr qarşısında ədalət hissi keçirir, amma ümumi fikirləri ədalətin və haqsızlığın meyarı hesab etmək olmaz. Nəzərə almaq lazımdır ki, zehn bütün ictimai məsələlərin təhlilinə qadir deyil və bəzən hissə qapılır ki, bu da ağıldan kənardır. Ağılın qüvvəsi, təcrübə və tədqiqin köməyi ilə inkişaf edir və ədaləti tanımağa o, şəxsin zehni qadirdir ki, ictimai işlərdə kifayət qədər dərin düşüncəyə və təcrübəyə sahib olmuş olsun. Bundan başqa, ədalətli şəxs

[8] Paul Roubier, fransız hüquqşünası (1886-1964).

düzgün və qeyri-düzgün arasında olan fərqi dərk etməkdən əlavə, həm də onun (düzgün tərəfinin) icra olunmasına səy göstərməlidir. Ədalətin başlıca hədəfi əxlaqala birlikdə olaraq təkamülə çatmaqdır. Ədalət, haqsızlıqlar qarşısında əxlaqi keyfiyyətləri əks etdirir və təcrübəli hakimlər, əxlaq və ədalətin bir-birinə bağlılığını, onun dəyərlərini, hər bir insanda baş verməsini və mövcud aləmdə görünməsini yerinə yetirən müdafiəçidirlər.

***Hüquq və ədalətin meyarı***

Qeyd etmək lazımdır ki, hüquq və ədalət hər ikisi tarixə aiddir və yunanlar bu birliyə hamıdan əvvəl yiyələnmişlər. Romalılar yunan düşüncəsinin ardınca getmişlər. Bu mövzuda mühüm bir məsələnin təhlilə ehtiyacı var və bu ondan ibarətdir ki, əgər hüquq olmasa ədalət, ədalət olaraq mövcud olarmı? Əlbəttdə, əgər hüquq olmasa ədəalət termin olaraq mövcud olacaq, amma məna olaraq mövcud olması qeyri-mümükündür. Ona görə ki, ədalətin mənası düzgün əmələ bağlıdır. Onda belə nəticəyə gəlirik ki, hüquq olmadan ədalət nəinki məna və hətta məfhum baxımından əhəmiyyətli hesab oluna bilməz. Çünki ədalətin mənası təkcə əməllə deyil, bu həm də hüquqla bağlıdır.

Biz ədaləti tərif etdikdə, ilk növbədə onu ictimai məsələlərlə əlaqələndiririk və deyirik ki, ədalət, hər hansı bir şeyin (bu istər şəxsə aid olsun və istərsə də müəyyən bir şeyə) düzgün bölgüsüdür. Ədalətin mövcudluğu hüquqla bağlıdır və hüquq olmadan ədalət öz təsirini göstərə bilməz. Əgər hər hansı bir şəxs ədalətə uyğun bölgü aparırsa, bu ilk baxışda ədaləti ifadə etsə də əslində bunlar hüquqi prinsiplərin yerinə yetirilməsidir. Ədalət həm daxildə və həm də zahirdə hüququn tələblərini yerinə yetirir. Ona görə ki, hüquqi normativlər olmasa ədalət bölgüsü aparıla bilməz. Bu hüququn gücüdür ki, həmin şəxsi ədalət bölgüsünə sövq edir və onun qarşısında sistemləşmiş tələblər qoyur. Hüquq, nizamlayıcı bir sistemdir ki, onun vasitəsilə ədalətə və əxlaqın digər məsələlərinə əməl olunur.

***Nəticə***

Burada təhlil olunan məsələlərin nəticəsi olaraq demək olar ki, ədalət hər bir millətdə ictimai-siyasi, iqtisadi və digər məsələlərdə əxlaqi dəyərlər yaradır və bu dəyərlər vasitəsilə qanun və qanunsuzluq arasında müəyyən hədləri göstərir. Ədalət hissi, hətta az olsa belə insanlarda mövcuddur. Amma bunun (ədalətin) müəyyən qaydası olmadığı üçün tam deyil və çox hallarda da aid olduğu hüquqi, siyasi, iqtisadi və digər məsələləri müəyyənləşdirə bilmir. Elə buna görə də, ədalət məfhumunun fəlsəfi və hüquqi təhlilini məhz hüquq və əxlaq elmində axtarmaq lazımdır. Çünki hüquq və əxlaq bir-birlərilə bağlı olduğu və müəyyən struktura (xüsusilə hüquq) sahib olduğu üçün ədalətin istiqamətini müəyyənləşdirir; yəni hüquq və əxlaq olmadan ədalət söz olaraq mövcuddur və bu məfhumun işlənməsi hüquq daxilindədir. Baxmayaraq ki, bəzi hallarda ədalət müstəqil olaraq tanınır, amma onun təkcə tanınması deyil, əsas tətbiqi və işlənməsi məhz hüquqla bağlıdır və ədalətə bağlı olan hər hansı bir şey birbaşa olaraq haqqın zatına dəlalət edir. Çünki mövcud aləmdə hər bir şey sistemləşmiş qaydalar əsasındadır, hətta adi bir kiçik canlının da hərəkəti

müəyyən qaydalara tabedir.

Digər bir bir məsələ ondan ibarətdir ki, ümumiyyətlə insan ədalətin yerinə yetirilməsinin tərəfdarıdır ona görə ki, bəşəriyyət tarixinə nəzər saldıqda ədalətin mövcud olması səylərini müşahidə edirik. Bu kəşməkeşli vəziyyətdə ziddiyyətlər və çəkişmələr baş verir və burada zor tətbiq edən tərəflər çalışırlar sübuta yetirsinlər ki, ədalətli bir hakimə ehtiyacları vardır. Amma ədalət bu qapalı və həm də dərin olan fikirlərdən əziyyət çəkir və bunları araşdırmaqla özünün azadlıq qurbanına çevrilir. Bəzən bunların öhdəsindən gəlir və bəzən isə daha geniş və möhkəmlənməsi üçün hüquqla birlikdə olmasını istəyir. Çünki hüquq, müəyyən və heç vaxt dəyişməyən sabit normativlərə hakimdir.

Bir məsələni də nəzərə almaq lazımdır ki, ədalət təkcə bərabərlik deyil ki, insanlar arasında mübadiləyə və bölgüyə riayət etsin, bəlkə ədalət, əxlaqın mənasını və onun tələblərini reallaşdıran və cəmiyyətdə mühüm təsirə malik olan bir amildir. Daha aydın desək, ədalət xüsusi mənada şəxs və əşyanın bərabər olması deməkdir, amma ədalətin məqsədi təkcə dəqiq və düzgün bərabərliyi təmin etmək deyil, ədalətin ən əsas məqsədi insanların mənfəət, ziyan, vəzifə və hüquqları arasında olan nizam-intizamı inkişaf etdirməklə yanaşı, həm də hüququn zəruri hesab etdiyi və yaratdığı ictimai mühiti qorumaqdır.

## ƏDƏBİYYAT

### İngilis dilində


1. (9) Aristotel. Nicomachean Ethics. Translated by W. D. Ross, Batoche Books, Kitchene 1999. /Patterson, Edwin. W. Jurisprudence, Men and Ideas of the Law, Brooklyn, The Foundation Press, INC. 1953.
2. (11) Andrew, Levine. Engaging Political Philosophy, From Hobbes to Rawls, Oxford: Blackwell Publishers, 2002.
3. (6) Cairns, Huntington. Leqal Philosophy from Ploto to Hegel. The Johns Hopkins Press, Baltimore 1949.
4. (7) David. Daiches Raphael. Concepts of Justice, Oxford: Oxford University Press, 2001.
5. (10) Hans Kelsen. What is justice? Justice, Law and Politics in the Mirror of Science. Berkeley and Los Angeles. University of California Press, 1957.
6. (14) Hegel Georg Wilhelm Friedrich, Philosophy of Right. Translated with notes by T. M. Knox. Oxford University Press, Lonon 1967.
7. (12) Marcus Tullius Cicero. Republic. Trans. By C. W. Keyes, Cambridge, Mass. Harvard University Press, 1928.
8. (8) Plato. Complete Works. İntroduction and Notes by J. M. Cooper. Cambridge, Hackett Publishing Company, 1997.
9. (5) Robert C. Solomon and Mark C. Murphy. What Is Justice? Oxford University Press, 1990.


### Ərəb və fars dillərində

.

-

## ЮРИДИЧЕСКИЙ И ФИЛОСОФСКИЙ АНАЛИЗ ПОНЯТИЯ «СПРАВЕДЛИВОСТЬ» В ФИЛОСОФИИ ПРАВА

**А.Н.ПАШАЕВА**

**РЕЗЮМЕ**

Одной из тем философии права является проблема «справедливости», которая составляет основу этой дисциплины. Принцип справедливости является также одной из главных отличительных черт морали и подчеркивает ее особенности. По мнению философов, понятие справедливости делится на несколько категорий и их использование основано на праве и его основополагающих законах. Принцип справедливости связан с правовыми принципами справедливости, не основывающаяся на законах, остается только на уровне простых слов.

В данной статье, наряду со ссылками на теории философов и правоведов, проанализированы общественные стороны понятия справедливости, а также исследованы ее юридические смыслы.

**Ключевые слова:** философия права, мораль, право, закон, справедливость, общественность, государство.

## PHILOSOPHICAL AND LEGAL ANALYSIS OF THE CONCEPT OF JUSTICE IN THE PHILOSOPHY OF LAW

**A.N.PASHAYEVA**

**SUMMARY**

The concept of "justice" which is the basis of jurisprudence is analyzed in the philosophy of law. Justice is studied as one of the most important properties of morality and its superior attributes are reflected. According to the philosophers, the concept of justice is divided into several categories and the development of these categories are based on rights and laws. The article, by reference to the theory of philosophers and lawyers, studies the concept of justice and its social aspects.

**Key words:** philosophy of law, ethics, right, law, justice, society, state.